İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI

Mart 2017


Baş redaktor : Dr.Vüsal Musayev

*İqtisad Elmləri Doktoru*

London Universiteti

www.vusalmusayev.com
info@iqtisadiislahat.org

# Azərbaycanda çimərlik turizminin inkişafı

Azərbaycan Respublikasının Prezidentinin 30 mart, 2017 ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilmişdir.

Yerli və xarici turistlərin Azərbaycanda əlverişli və beynəlxalq standartlara cavab verən turizm xidmətlərindən yararlanması, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycanın əlverişli coğrafi mühiti ölkəmizdə turizmin əksər sahələrinin, xüsusilə də çimərlik turizminin inkişafına zəmin yaratmışdır. Xəzər dənizinin (gölünün) sahilində yerləşən ölkəmiz çimərlik turizminin inkişafı baxımından geniş potensiala malikdir.

Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin müvafiq nömrəli Sərəncamı ilə "Çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər planının tətbiqi nəticəsində Xəzər dənizinin (gölünün) Azərbaycana mənsub olan yararlı ərazilərində çimərlik turizminin inkişafı ilə bağlı görüləcək tədbirlər nəticəsində növbəti illərdə turizm sektoruna yerli və xarici investorların marağı artacaqdır.

Sərəncama əsasən, təsdiq edilmiş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilmişdir.

Tədbirlər Planı çərçivəsində çimərlik sahələrinin dənizə çıxış yerlərində standartlara uyğun məlumatlandırma lövhələrinin quraşdırılması, həmin ərazilərin yaxınlığında nəqliyyat vasitələri üçün pulsuz avtodayanacaqların salınması ilə bağlı tədbirlər görülməsi, çimərlik ərazilərində kompleks təsərrüfat-kommunal xidmətlərinin (qarderobların, duş kabinələrinin, ayaqyuyanların, zibil qutuları və konteynerlərinin) yaradılması nəzərdə tutulur.

Belə ki, Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı aşağıda qeyd edilmiş tədbirlər olmaqla, 6 hissəni özündə birləşdirir:

1.Çimərliklərə dair hüquqi bazanın təkmilləşdirilməsi;

2.Çimərliklərdə infrastrukturun yaradılması və təkmilləşdirilməsi;

3.Çimərlik operatorlarının fəaliyyətinin tənzimlənməsi;

4.Ətraf mühitin mühafizəsi tədbirləri;

5.Təhlükəsizlik tədbirləri;

6.Çimərliklərə dair informasiya bazasının yaradılması və çimərlik turizminin təşviqi.

Bununla yanaşı, Tədbirlər Planında Beynəlxalq təcrübə nəzərə alınmaqla, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu və çimərlik üçün müəyyən edilmiş yararlı ərazilərinin yaxınlığında müvafiq infrastruktur obyektlərinin inşasına, həmçinin aidiyyəti üzrə sahibkarların təklif etdiyi layihələrin dəstəklənməsinə dair təkliflərin hazırlanması da qeyd edilmişdir.

Ətraf mühitin mühafizəsi tədbirləri müvafiq Sərəncam çərçivəsində xüsusilə vurğulanmışdır, belə ki, çimərliklər üçün müəyyən edilmiş ərazilərdə formalaşan tullantı sularının idarə edilməsi, sanitariya-mühafizə zonalarının yaradılması və bu ərazilərdə həyata keçirilməsinə qanunla yol verilən fəaliyyət növləri, məişət tullantılarının idarə olunması mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər Planında eyni zamanda, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli Sərəncamının icrası ilə əlaqədar yaradılacaq turizm reyestrində və müvafiq informasiya saytında çimərlik turizminə dair ayrıca bölmənin olması, çimərliklərin xəritələri və onlar barədə ətraflı məlumatların bu bölmədə yerləşdirilməsi və çimərlik mövsümü ilə bağlı elektron bülletenin hazırlanması nəzərdə tutulmuşdur.

Həmçinin, turistləri cəlb etmək üçün müvafiq təbliğat-təşviqat tədbirlərinin görülməsi, xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə çimərlik turizmi

ilə bağlı seminarların, təlimlərin keçirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi tədbirlər planında nəzərdə tutulmuş mühüm məsələlərdən biridir.



/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

(+994)12 5213318

http://iqtisadiislahat.org
http://ereforms.org
http://ecoreform.az

info@ereforms.org